www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

“Gənc yazarın e-kitabı” N 54 (66 - 2013)

# Qalib Şəfahət

## “Əllərindəki Göyüzü”

**Poetik toplu**

Qalib Şəfahət (Bağırov Qalib Xanoy oğlu) 1973-cü ildə Gədəbəy rayonunun Parakənd kəndində ziyalı ailəsində anadan olub. 1997-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsini bitirib. Həkim-kardioloq işləyir. “Mənə ürək verin” adlı ilk şeirlər kitabı 2010-cu ildə yayınlanıb.

Virtual redaktoru və e-nəşrə hazırlayanı:
Aydın Xan (Əbilov), yazar-kulturoloq

2013

Yeni Yazarlar və Sənətçilər Qurumu. e-nəşr N54 (67 - 2013)

**www.kitabxana.net**
**Milli Virtual Kitabxananın təqdimatında**

**"Gənc yazarın ilk e-kitabı" 56 (66 – 2013)**

**Bu elektron nəşr Yeni Yazarlar və Sənətçilər Qurumu: http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Gənc yazarların İnternet resurslarında e-kitabla iştirakı təlimi" ("Gənc yazarların maarifləndirilməsi. İnformasiya texnologiyaları istifadəsinin inkişafı" altbölümü) kulturoloji-innovativ layihəsinin davamı olaraq nəşrə hazırlanıb və yayılır.**

**Elektron Kitab N 54 (66 – 2013)**

**Kulturoloji layihənin bu hissəsini maliyyələşdirib:**

**Azərbaycan Respublikası Prezidenti yanında**
**Azərbaycan Gənclər Fondu** və YYSQ**:**

**http://youthfoundation.az**

# Qalib Şəfahət

## "Əllərindəki Göyüzü"

**Poetik toplu**

Qalib Şəfahət (Bağırov Qalib Xanoy oğlu) 1973-cü ildə Gədəbəy rayonunun Parakənd kəndində ziyalı ailəsində anadan olub. 1997-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsini bitirib. Həkim-kardioloq işləyir. "Mənə ürək verin" adlı ilk şeirlər kitabı 2010-cu ildə yayınlanıb.

YYSQ - Milli Virtual Kitabxana. Bakı – 2013. E-nəşr N 54 (67 - 2013)
Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

**"Gənc yazarın ilk e-kitabı" silsiləsindən bütün kitablarla buradan tanış olun:**

**http://www.kitabxana.net/?oper=e_kitabxana&cat=167**


Qalib Şəfahət
Qalib Şəfahət (Bağırov Qalib Xanoy oğlu) 1973-cü ildə Gədəbəy rayonunun Parakənd kəndində ziyalı ailəsində anadan olub. 1997-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsini bitirib. Həkim-kardioloq işləyir. "Mənə ürək verin" adlı ilk şeirlər kitabı 2010-cu ildə yayınlanıb.
Qalib Şəfahət
əllərindəki göyüzü
alatoran yayınları
alatoran yayınları
ISBN: 978-9952-8501-5-4
Qiyməti: 2 AZN
şeirlər
Qalib Şəfahət
əllərindəki göyüzü
şeirlər

# Qalib Şəfahət

# ƏLLƏRİNDƏKİ GÖYÜZÜ

Korrektor: **Nərmin Həsənli**

Kompüter dizaynı: **Yaşar Şahlaroğlu**

**Qalib Şəfahət. ƏLLƏRİNDƏKİ GÖYÜZÜ.** 101 səh.. Çap tarixi: 15.04.13. Format: 13x20

Qalib Şəfahət (Bağırov Qalib Xanoy oğlu) 1973-cü ildə Gədəbəy rayonunun Parakənd kəndində ziyalı ailəsində anadan olub. 1997-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsini bitirib. Həkim-kardioloq işləyir. "Mənə ürək verin" adlı ilk şeirlər kitabı 2010-cu ildə yayınlanıb.

© Qalib Şəfahət

MƏNİ  XATIRLAYARSAN

Ömrümü

banka qoydum,

əmanət

kimi.

dar  gündə

çıxararsan,

gərəyin olar.

Sonra

acı-acı

xatırlarsan

Məni.

Və…….

Nəsə deyinərsən,

Özün  üçün.

## O QIZIN ARZULARI

Ölümcül yaralanıb
o qızın arzuları -
gündüzlər
hər gün
əri işə ötürməkdən,
uşağı məktəbə
yola salmaqdan,
gecələr
ər qoynunda gizlənməkdən.
Heç oyadan da yoxdu
"çox yatma" - deyə.
Qolları yorulub
arzuları üstünə çəkməkdən.
Yenə üstü açıq qalıb -
soyuq dəyib bu gecə.
Nəfəs ala bilmir
qəlbində gizlətdiyi xəyanətdən.
Nə qədər tək yatmaq olar
Bir arzu, bir xəyalla?!.
Hər gün ev süpürür
uzun saçları ilə
qonağı olacaq deyə.
Hər gün yemək hazırlayır -
kirpiyində qor götürüb.
Vəfasızlıqdan o yana
ömur qurtarır -
sərhəd kimi.
Özüylə döyüşdə
ölümcül yaralanıb
o qızın arzuları...

## ARADAN SOVRULDUM

Ey...
Hardasan, cənnət yeri -
öpüm ayağından.
Yandım istisindən,
boğuldum
cəhənnəm tüstüsündən.
İy gəlir..
Yanıq iyi
məndən.
Aç qapını gir içəri
bax gör ölüyəm,
ya diri.
Necə görsən-
özün bil.
Cəhənnəm özü ölü.
Yanmadım, qovruldum,
yaxşı ki, sən gəldin -
aradan sovruldum.
Cənnətlə cəhənnəm
arasından.
Qaldım
cənnətlə cəhənnəm
arasında...

QOL – BOYUN OLAQ

Mənim köynəyimin qolu yox
sənin köynəyinin boyunluğu.
Aramızda sərhəd yox
bir köynək də -
yad deyilik daha.
Qolumu boynuna
dolayım ya yox?!.
Qorxuram qolum
boynundan ayrılmaya
yaxınını illərdən sonra
tapmış
insanlar kimi.
Qorxmuram - qolum boynunda Qala -
Qorxuram qolum boynunda qala.
Qolsuz qalım, ya ürəksiz?
Məndən qol, səndən boyun
Qolum boynunda qala -
Qol-boyun olaq.

## İTİRDİM QƏLBİMİ

İtirdim qəlbimi oyuncaq kimi,
Bir yoldan ötəni, tapanı olar.
Bir gün tapıb əzizləyib, oynadan -
Bir gun bəyənməyib, atanı olar.

Bəlkə də kimsə atıb gedəcək!
Çilik-çilik olar, düşüb daş üstə.
Yıxılar dolaşıb, ələ-ayağa -
Təzədən qoyarlar yenə baş üstə.

Bəlkə də harasa yeriyib gedər
Özünə bir yuva, bir yurd qurmağa.
Bəlkə də sınacaq qolu-qanadı -
Gücü çatmayacaq daha durmağa.

Bəlkə də öləcək düşdüyü yerdə
Ölüdü, diridi görən tapılmaz.
Bəlkə də yanacaq ağzında dili
Bircə qaşıq su da verən tapılmaz.

Bəlkə də qocalıb düşəcək əldən,
Nə oğul gələcək, nə qız baxacaq.

Gözləyib-gözləyib yorulub yenə
Girəcək yerinə, yenə yatacaq.

Bəlkə də qəbrinin yerini bilib,
Kimsə gül qoyacaq məzarı üstə.
Mənim ki, ürəyim su yolu deyil -
Nə çox get-gəliş var, səbrimin üstə...

## QƏLBİN İŞĞALI

Bir qızın
Asta-asta,
özündən xəbərsiz
boy atmağı,
körpəliyi, uşaqlığı,
yuxuya gedib
yuxulamağı,
qəlbinin
işğal olunmağına
işarədir.
Gəlirsən
qəlbinin işığına.
özündən xəbərsiz
girirsən qəlbinə
işğal edirsən
qəlbini.
Bütün arzularına,
sonra gəncliyinə
sahib çıxırsan.
Gəncliyini
odlu-alovlu

məhəbbətdə,

sevmək-sevilməkdə,

qayğıda, nəvazişdə

itirib.

Sonra

gəncliyini

tərk edib

çəkilir

qocalığına.

***

Bu qış da

ömrü

təzələyə bilmədim.

Astarını çevirib
geydim əynimə -
təzə görünsün deyə.
Sapları
sallandı
əynimdən...

***

Əllərin
boşdumu?
Əllərini
ver mənə.
girib ovcuna
dincəlmək istəyirəm.

## GÖZÜNÜ AÇ

Gözünü aç, bir baxım,
Bir də görüm özümü.
Baxışın mürgüləyir –
Vərəqləyim özümü.

Gözünü aç, bağlama,
Şeirim hardadı, bilim.
Qəlbim əsir düşübdü –
Gedib yolunda ölüm.

Gözlərini bir aç, bax,
Gözlərin nə haldadı?
Həsrət çoxdan çatıbdı –
Vüsal hələ yoldadı.

Göz yaşın quruyubmu?
Havam çatmır, boğuldum.
Ürəyində öləcəm –
Gözlərində doğuldum.

## YUXUMDA BİR İT HÜRÜR

Yuxumda bir it hürür –
Çöldə qar-borandı yenə.
Yuxumda bir it hürür –
Bir qız naləsi
Çökür içimə.
Yuxumda bir it hürür –
Yalquzaq kimi
Çəkilmişəm
Dünyanın bir küncünə.
Yuxumda bir it hürür –
Tək-tənhayam yenə
Çəkilmişəm öz içimə.
Yuxumda bir it hürür –
İçim qürbətdi yenə.
Yuxumda bir it hürür.

Eh!..
Nə deyim sənə
Yuxuma it azdıram...

## SƏNİ İNCİTMƏK ASAN

Səni sevindirmək
Çətindən çətin...
Bayram günü evə
Gec gələsən,
Əlində gül buketi olmaya.
Sakitcə keçəsən otağına –
Lal-dinməz uzanasan
Yatağına,
Gözlərin dikilə tavana.
Otağa dərin sükut çökə
Sonra ürəkdən güləsən.

Səni incitmək asan…

## YOXDU

Ömrümdən fərman verilib
Yerinə yetirən yoxdu.
Ölümüm çöldən vurnuxur –
Içəri gətirən yoxdu.

Bu da bir eşqin sazıdı,
Bu da bir qızın nazıdı,
Bu da bir alın yazıdı
Heç yazıb bitirən yoxdu.

Toy elə toyuna gəlim,
Yoluna xalılar sərim.
Qəlbimə ölmüsən mənim –
Ölünü götürən yoxdu.

## GÖZLƏDİM

Əvvəl səni gözlədim,
Sonra eşqimi –
Ondan sonra ölümü.

Nə sən gəldin,
Nə eşqim...
Açdım gözlərimi
Qapının ağzını
Kəsdirib ölüm!

KOR OLUB ƏLLƏRİM...

Əlac çözmur daha
əlacını itirib.
Dərd anlamır,
dərdə düşəndən.
Dərd oynadır əlində -
təsbeh kimi.
Dərdin əlimdə qalıb,
Üzünə baxan yoxdu.
Amma üzülmə,
Öləcək əllərimdə,
böyüməyəcək -
dələduzun davası tək.
Əllərimdən şəfa umma
gözlərimə dustaqdı əllərim.
Əllərim yanıma düşub -
oyuncaq kimi
qollarımı oynadır.
Əllərim dəli olub,
diksinir qorxudan -
mollalıqdı deyirlər.
Cənazə götürmür yerdən
Tabutunu etibar etmə
sindırar salıb yerə
Xortlayarsan yenə.
Bu mən, bu sən
bu da əllərim.
Nə istəyirsən?
Baxmır heç nəyə
Görmür heç nəyi
koralıb əllərim,
kor olub əllərim.

## SOYUQ DOLUR İÇİMƏ

Qışda soyuq ev kimi
Soyuq dolur içimə.
Səsim donub içimdə -
Soyuq dolur içimə.

Nə talayan, talan yox
Nə içimdə qalan yox
İçimə od salan yox,
Soyuq dolur içimə.

Ay içimə azdıran,
Min bir yana yozduran,
Qızınmadım  qızdıram -
Soyuq dolur içimə.

Qalmağa bir kəsi yox,
Kimi yox, kimsəsi yox,
Qapı  pəncərəsi yox -
Soyuq dolur içimə.

Yırğalanmır beşiyim,

Çəkən yoxdu keşiyim,

Yiyəsiz ev-eşiyim -

Soyuq dolur içimə.

YETİM QIZ

Gəlinlik paltarını
Gözündən salıb itirmişdi
Anası ölən günü
Anasını ağlayanda.
Görən olmamışdı
Daha
Bəlkə də kəfən əvəzi
Anasını bükmüşdülər
Gəlinlik paltarına.
O gündən anasının
Qara gün üçün
Saxlancda saxladığı
Libası geyindi əyninə
Lüt qalmasın deyə.
O gündən anasının
Yarımçıq qalmış
Arzularını böyütdü
Həyət-bacada.
Yetimçiliklə
Böyüdü yetimçiliklə.
Yetim qız dedilər-
Adına.

## BU YOL

Bu yol
Bir vaxt
Ürəyimi aparırdı.
İndi
Səbrimi aparır.
Nə vaxtsa
Ömrümü aparacaq.

EŞQİMİZ

Bir  vaxt

bir eşqim var idi

bir də mən.

Başqa heç kimimiz.

Güvəndım eşqimə

çıxdım yaxın-uzaq yola -

qonaq gəldik sizə.

İndi -

Bir sən varsan,

bir mən,

bir də

eşqimiz.

GÖY ÜZÜNÜ SAXLA ƏLİNDƏ

Götür

Göy üzünü

Saxla əlində.

Qol-qanad açım

Mən uçum orda

əlindən buraxma

gedərəm uzağa.

Qoyma

məni darıxmağa.

QAÇIB GETDİM ÖZÜMDƏN

Qəfil, elə bir anda

Qaçib getdim özümdən.

Ürəyimin qapısını,

Açıb getdim özümdən.

Görən olmadı məni,

Yaxşi ki görmədilər.

Yoluma söhbət-sözdən

Nə hasar hörmədilər.

Bir vaxt görəcəklər ki,

Heç yerimdə yoxam mən.

Heç kəs məni görməyir,

Hamını görən, baxan mən.

Soruşmadım özümdən,

Söylə yolun haradı.

Sən arzuladığın  yer,

Bəlkə elə buradı.

Yox-yox yolum başqadı,
Heç bilməsin özüm də.
Qəlbimdə ağrı duyar,
Kədər görər gözümdə.

Qismətimə  çıxıbdı,
Bu yol, bu ərkan mənim.
Bu yol haqqın yoludur,
Bu yer, bu məkan mənim.

## GÖRDÜYÜ KİMİ BAX  GÖZLƏRİMƏ

Gülmə gözlərimə,

göründüyü  kimi qəbul eləmə...

Döyüşdən çıxan əsgər kimidir

gözlərim.

Yanağındakı xal ilə,

bir də

iti baxışlar ilə,

Döyüşüb gözlərim.

Bir az  yorğun görünür.

döyüşdə düşməni məğlub edib,

üst-baş toz- torpq içində...

dincəlmək istəyən

əsgər tək.

Gördüyün kimi qəbul eləmə

gözlərimi.

Gördüyün kimi bax gözlərimə.

KEÇƏNƏ  QAYIDAQ BİR AZ

Sevilmədik, sevənmədik

Oyuncaq oynayaq bir az..

Belə vədə  düşməz ələ

Doyunca oynayaq bir az.

Bəxtimizi ataq-tutaq,

Əldən düşsə qaçaq, tutaq.

Yorulub yanında yataq

Cox yatsa oyadaq bir az.

Nəyimiz var bölək yarı,

İkimizdə  ölək yarı.

Dönək özümüzə sarı

Keçənə qayıdaq bir az.

GÜNAHI SAXLA GÖZÜNDƏ

Gəl ağlama canım-gözüm.

Yaylığınla sil gözünü.

Ağlama ,

kor olar gözün,

Nə günahkar bil özünü.

Bu qədər ağlamaq olmaz,

Yeri, göyü sel aparır.

Kökü dərin

köklü ağacı

Qazıb kökündən qoparır.

Dağ başından axan sellər,

Dağ döşündə oyuq salar.

Günəşdən gizlənər üzü

Soyuq axar, soyuq sular.

Qurut daha göz yaşını

Sel tutmayır dərələri.

Gözündən axıb gedəcək,

Gözündəki görüş yeri.

Neçə adam, neçə canlı,

Bu seldə axıb gedəcək.

Bir gözünə,

bir özünə

Həsrətlə baxıb gedəcək.

Batma bu boyda günaha,

Bu boyda günah yuyulmaz

Nə bükülər ağ bələyə

Nə də torpağa qoyulmaz.

Dəniz də daşır sahilə,

Balıqları üzdə üzür.

Bu gəmi dənizi qoyub

Bir gör necə

gözdə üzür.

Günahı saxla gözündə,

Bu boyda günah axıtma.

Günah üstə üzür hamı,

Tuşdu

günahkar baxtına.

SÖZLƏR XƏSTƏLƏNƏNDƏ

Sözlər qəlbimdə xəstələnəndə

Dərdini arayıb, dərman tapıram.

Adi bir sözündə kəsib yanını

Sözlə oyanıram,

sözlə yatıram.

Sözlər də olur  insanlar kimi

Ən ağır sözlərin dərdi çətindi.

Dözür hər nazına, dözür səbrlə

Qəlbim dayaz deyil,

qəlbim mətndi.

Sözlər ağıllıdı, sözlər dəlidi

Tək həb kömək etmir dəli sözlərə.

Sözlər yol bağlayır,

sözlər yol açır

Yeni fikirlərə, yeni sözlərə.

Sözlər inciyəndə, sözlər küsəndə

Ağırlıq,yorğunluq dil düşür.

Qırılıb içimdə sözün saplağı,

Yuvarlanıb gedib ,

dərinə düşür.

Həm xəstəyə baxdım,

həm sözə baxdım

Bir təbib ürəyim sözə çevrildi.

Qəlbimdə oynayan şübhə, gümanlar

Yalana yox dedi,

düzə çevrildi.

## HƏLƏ DƏ TAPMAMIŞAM

Aylar, illər ötüşür

Hamı getdiyi yerə,

Bir mənzilə yetişir.

Çox yaralar qaysaqlar,
Çox yaralar bitişir.
Hələ də tapmamışam
Sevdiyim qız mən səni.
Bu yerin hərküncündə,
Hər  yanında gəzirəm.
Bu eşqdən güc alıram,
Mən həsrətə dözürəm.
Yerdən əlim üzülsə
Göylərə boylanıram.
Sənin xəyallarınla,
Özümdən utanıram.
Adını da bilmirəm,
Üzünü görməmişəm.
Nə qəlbimi açmışam,
Nə könül verməmişəm.
Kiminin baxışında,
Kiminin gözlərində,
Axtarmışam mən səni.
Kiminin yerişində,
Gözləmişəm mən səni.
Kiminin yerişində
Yerişin tanış gəlir.
Kiminin gülüşündə
Gülüşün taniş gəlir.
Hər an görürəm səni
Qəlbimin yaxınında.
Sən mənə qoşulursan

Zamanın axınında,

İllərdir yol gəlibsən,

Mənimlə yol gedirsən.

Mənimlə oturursan

Mənimlə dincəlirsən.

Ruhun qanadlarında

Səni görməkdən ötrü,

Mən göylərə çıxıram

Özümdən boylanıram,

Mən özümdən baxıram.

İllərdir axtarıram,

Günahkar bilmə məni,

Hələ də tapmamışam,

Hələ də axtarıram

Sevdiyim qız mən səni.

TA ÖLÜMƏ ALIŞMIŞAM

Hər gün ölüb, dirilirəm

Ta ölümə alışmışam.

Öldüyüm günü bilirəm

Mən ölümlə danışmışam.

Qəbrimi qazmışam özüm

Biçilibdi kəfənim də.

Hər gün bir az ölürəm mən

Soyuduqca bədənim də.

Özümdən uzaq gəzirəm,

Ölümə yaxın olan gündən.

Keçən gündən ölüm gəlir

Gedir yerdə qalan gündən.

24.10.10

***

Məndən ötmək istəsən,

üstümdən yol sal.

Məni keçmək istəsən,

arxada qal.

Məni görmək istəsən,

yum gözlərini.

Mənə toxunmaq istəsən,

bir daş at mənə.

Arxamca sürünmək istəsən,

yağış ol,

damcıla göydən.

Məni islatmaq istəsən,

günəş ol,

yandır məni.

Məni axtarmaq istəsən,

çəkil bir otaq küncünə,

xısın-xısın ağla.

Yoxa çıxsam gözlərindən,

söz kimi

udarsan məni.

27.12.2010.

GEDƏSƏN

*Milli Qəhrəman Mübariz İbrahimovun əziz xatirəsinə*

Bu dərdlərin başçısının,

Başını kəsib gedəsən.

Qazanı yana çevirib,

Aşını töküb gedəsən.

Dərdləri başından aşa,

İşi çoxalıb, dolaşa.

Sonra da kotana qoşa

Yerini əkib gedəsən.

Gözünə dolan dərdləri,

Əlində ölən dərdləri,

Dərində qalan dərdləri,

İp salıb, çəkib gedəsən.

KÜLƏK ƏS QURTAR MƏNİ

Külək əs

Qopar məni.

Acı yellır

Özümdən uzaqlara

Apar məni

Məndən apar məni

Külək əs qurtar məni.

Əs qurtar

Yağış yağsın

Məndən qopan

Dərdlərin üstünə

Üstündə qan izi

Qalmasın

Kimsə kimisə

Günahkar bilib

Həbsxanaya salmasın

Özüm burda qalım

Özümdən

Qopub, ayrılan

Xəyllarım

Uzaqlarda.

Təki

        Qovuşsun

                Arzusuna.

27.10.10

GECƏNİN  GÖZÜ YUXULU

Küləyin səs-küyündə

gecənin qulağı batıb.

Gecənin gözləri yorğun görünür

Neçə gündür

Yuxu üzünə

Həsrət qalıb

gecə.

Mürgüləməyə

Vaxt tapmayır.

Külək

Toz-torpağı

Üzünə çırpdığından

əllərini  üzünə tutub.

Səbrini

Dağa-daşa çırpdığından

Gözündə sellənən

Sudu bu yağış

Bir pəncərə gözlüyündən

Evlərə  soxulub

Rahatlıq  tapmağa

Halı qalmayıb daha.

Külək

O yana

Bu yona

qovur

Başı

Küləyin

Hay-küyünə

Qarışdığından

Gözünü açınca

Başının üstünü

Kəsdirir gündüz

Gecənin gözü yuxulu.

Açılır sabaha

01.02.11

QƏLBİN İŞĞALI

Bir qızın

Asta-asta,

Özündən xəbərsiz

Boy atmağı,

Körpəliyi,uşaqlığı,

Yuxuya verib

Yuxulamağı

Qəlbinin

İşğal olunmağına

İşarədir.

Gəlirsən

Qəlbinin işğalına.

Özündən xəbərsiz

Girirsən qəlbinə

İşğal edirsən

Qəlbini.

Bütün arzularına,

Sonra

Gəncliyinə

Sahib çıxırsan.

Gəncliyini

Odlu-alovlu

Məhəbbətdə

Sevmək-sevilməkdə

Qayğıda,nəvazişdə

İtirib.

Sonra

Gəncliyini

Tərk edib

Çəkilir

Qocalığına.

GƏL SÖZÜMƏ YİYƏ DUR

Sözlərim

Ayaq  yalın,

Başı açıq qalıb.

Tənhalığa öyrəşib sözlərim.

Qorxur kiməsə

Dil açmaqından...

Bir göz qırpımında

Uzaqlaşır hamıdan.

Xəlvəti tin-bucaq axtarır

Başını daldalamağa.

Kiminsə

Daş atmağından

Qorxur.

Ay sözümün

Sahibi

Gəl sözümə yiyə dur.

ÜRƏYİMDƏ KÖÇƏCƏM ...

Mən dünyaya gələndə,

əvvəl

ürəyim dil açdı,

sonra gözlərim.

Ondan sonra ,

dilim dil açdı,

daha sonra,

əllərim dil açdı.

Ürəyimlə doydum,

gözlərimlə yedim,

dilimlə daddim,

əllərimlə götürdüm,

bu dünyada nə vardısa.

Öləndə

əlimdə öləcəm,

dilimdə ağlayacam,

gözlərimdə yas tutacam,

ürəyimdə köçəcəm

bu dünyadan.

Ürəyimlə başladım,

ürəyimlə qutaracam özümdən.

ÖMRÜMƏ YOL GEDİRƏM

Bu canı sürüməyə,

Ömür  tutmur əlimdən.

Bir addım kənar gəzir,

Sanki qorxur ölümdən.

Yük düşüb öz çiynimə,

Əlim çiynimdə qalıb.

Canımın ağır yükün

Ömür ciynimə salıb.

Gözlərim heç nə görmür,

Bu bəxtin qırağında.

Ömrümə yol gedirəm,

Xəyalın qucağında.

AZADLIQ ALACAM

Canımdakı ağrını,

gözümdəki kədəri,

Üstümə atılan böhtanı,

Başımdan yağdırılan töhməti,

qəlbimdəki nifrətlə

yuya bilsəydim?

Yaşamaq üçün

Gedib

Azadlıq alacam,

Azadlıq meydanından.

***

Hamı yatmağa tələsir,

mən isə oyanmağa…

Bu gecənin qaranlığında.

gecənin qaranlığı ilə yuyuram,

üz-gözümü.

Gecənin qaranlığı

sığal çəkir saçıma.

Qaranlıq ətri gəlir məndən

gecənin qaranlığını

keçirmişəm ayaqlarıma,

sıxır barmaqlarımı.

Gecənin qaranlığında

yol gedirəm sənə.

Sənə çatmağım,

qaranlıqdı mənə.

Qaranlıqdı “sənin məni” “mənim səni”

sevməyimiz.

Qaranlıq qalıbdı bizim görüşməyimiz.

Hər şey kimi-

qaranlıqda yuxu görməyim.

Boğuluram qaranlıqda.

## GEDİRİK

Sən mənim, mən dərd içində,
Ağzı tikilib gedirik.
Bu arzuya, bu həvəsdə,
Niyə bükülüb gedirik?

Odu sönmüş ocaq kimi,
Bir anlıq kef-damaq kimi.
Kohnə dərddən yamaq kimi
Sapı sökülüb gedirik.

Hələ küldə küllənirik,
Külək əsdi, yellənirik,
Yağış yağdı sellənirik,
Çaya tökülüb gedirik.

Su üzündə saman kimi,
Ümid kimi, güman kimi.
Gün çıxanda duman kimi
Göyə çəkilib gedirik.

Yol bizimdi,yolaq bizim.
Dərdimizə varaq bizim,
Dərdimizdən qıraq bizim,
Niyə əkilib gedirik?

ÜRƏYİMDƏN KƏNARDA SEVMİŞƏM SƏNİ

Hər kəsdən xəlvət.

Hamıdan xəbərsiz

Hər şeydən gizli

Səssiz,səmirsiz.

Duygularımı yatırıb

Arzularımdan gizlicə

Xəyallarıma adaxlandın.

Eşqsiz, sevgisiz

Ürəyimə kəbinsiz

Elə ürəyimdən

Kənarda

Sevmişəm səni.

TƏMİZLİYƏ EHTİYACIM VAR

Sifətini  kir  tutub,

icini pas.

Gün düşmür icinə.

Axmağa yer tapmır

icindəki

Qurund sular.

Təmizliyə

Ehtiyacın var

Sənin.

Yoxsa

icində

boğulub öləcəksən.

Çətin tapılacaq

Ölmüş cəsədin.

İTİRMİŞƏM YERİMİ

Səndən sonra

Harda olduğumu

Bilmirəm.

Itirmişəm yerimi,

Hardasan,

Ya yerimi de

Mənə.

Ya da

Hara qoymusan

Gəl əlinlə

Səndən əvvələ

Qaytar məni.

BİLMİRƏM

Nə  yaman çəpər olmuşam,

Özümdən çıxa bilmirəm.

Yıxılıram  öz  içimə,

Çölümü yıxa bilmirəm.

İçim  çölümə qıymayır,

Baxışım məndən doymayır,

Gözlərim mənə boylanır,

Üzümə baxa bilmirəm.

Məndən mənə xatirə qal,

Məndən mənə bir körpü sal,

Məndən mənə bir addım yol,

Hündürə qalxa bilmirəm.

***

Arzularım,

Uçurdun

Dərdlərimi

Başımdan

Üzü aşağı.

Ümidlərim

Daş-kəsək

Altda qaldı.

Özün də harasa

Çıxıb getdin.

Bir kimsə tapmadım,

Ümidlərimi

Daş-kəsək

Altdan

Çəkib çıxarmağa...

GƏLMƏZDİM

İncitmişdin qəlbimi,

küsdürmüşdün məni.

Bəlkə də ...

Gəlməzdim!

Arzuları

qova-qova,

Gəlib

çıxmışam  sizə.

YUXUMU APARMA MƏNİM

Alma yuxumu əlimdən

Yuxumu aparma mənim.

Qoyub kədərin çölündə

Yuxumu aparma mənim.

Bu dərddən qurtarma məni,

Özumdən aparma məni,

Yuxumdan qoparma məni,

Yuxumu aparma mənim.

Bəxtimə  xəzəl olursan,

Ömrümə əzəl olursan,

Yuxumda gözəl olursan.

Yuxumu aparma mənim.

Başdan çıxmır sevda dəmi.

Unudub kədəri-qəmi,

Yuxumda gəzirəm səni,

Yuxumu aparma mənim.

Bu həsrətə son olacaq

Bir sevincli gün olacaq.

Bir gün  yuxum çin olacaq,

Yuxumu aparma mənim.

Hər axşam dərəcəm səni,

Qəlbimə sərəcəm səni,

Yuxumda görəcəm səni,

Yuxumu aparma mənim.

## ÖLÜMƏ ÇATIB GEDİRİK

*Milli qəhrəman Mübariz İbrahimovun əziz xatirəsinə*

Ümiddə donub bu dünya,

Xəyalda batıb gedirik.

Qaçırıq ömrün dalınca,

Ölümə çatıb gedirik.

Ağrı-acını xurcun kimi,

Aşırmışıq kürəyimizə.

Dərdlərin ən qorxulusu,

Qısılıbdı ürəyimizə.

Dözümün səbri tükənib,

Bomba tək partlar əlində.

Ölümdə bir şirinlik var,

Şəhidsən

vətən yolunda.

MƏNDƏ VAR

Sənə gərək

Sevgidirsə

Məndə var.

Sənə gərək

Ürəkdirsə

Məndə var.

Sənə gərək

Ümiddisə

Məndə var.

Sən istəyən

Arzularda

Məndə var

Bircə

Xumarlanıb

Yatma

Xəyalların

Qoynunda.

23.05.2011.

ÖZÜMÜN DEYİLƏM

Hər şey kimi,

bir az varam, bir az yoxam.

Amma

mən özümün deyiləm.

Hər şeydən bir az,

hərənin bir az

yığılıram mən oluram.

Kimə necə sərf edirsə

kətan üstə fırça ilə

tablo  köçürülən kimi

mən olmuşam,

fırça əldən düşən kimi

düşürəm özümdən,

Özümün deyiləm onda

hərənin bir az

hamı mənə sahib çıxır

özümdən başqa -

mən özümün olmayanda.

HAMINI ALACAQ TORPAQ

Hamının boyu uyğun gəlir

torpağa,

təkcə yaşı yox.

Hamının üstünü örtəcək

torpaq.

Bircə düşüncədən,

xoş əməldən başqa.

Torpağı pulnan alırıq -

hamını alacaq torpaq.

Ucuz-baha...

Ey!.. İnsan oğlu,

İndidən düşün -

Torpaqda özünə yer tapmağa...

## SƏNİ AXTARIRAM

Səni axtarıram, hər zaman səni

Bəxtimin qaranlıq döngələrində.

Bəlkə də qəlbimdən uzaq düşmüsən

Ümidin ümidsiz kölgələrində.

Qəlbimə sığmayan arzularım da,

Uşaq tək iməklər sənin yolunda,

Kədərin xəlvəti bir diyarında,

İtirdim sayını bəlkələrin də.

Arzuma şirinlik qata bilmədim,

Yüyürdüm arxanca çata bilmədim,

Axtardım-axtardım, tapa bilmədim

Xəyalın ən uzun cərgələrində.

Ümüdüm böyükdü; bəlkə tapardım....

Qəlbimin simini çəkib qopardın!

Səbrimi yollarda yeyib qurtardım,

Ömrümün bu səfil küçələrində.

## XİLASKAR

Bu dünyada

əsl kişinin

iki

xilaskarı var.

Biri

gözəl-göyçək

bir qadın.

Biri

uca boylu

palıd ağacı.

Birisi

can alandı.

birisi

can qurtaran.

SOYUNDUM…

Qəlbimdəki kədəri

soyundum….

Sıxırdı məni.

Qəlbimdəki sevinci

soyundum…

Döyundürdü ürəyimi.

Axırda

lüt qaldım….

soyuqluğa

dözümüm yox!

REDAKTƏ ET ÜRƏYİMİ

Redaktor xanım,
İllərdir qəlbimdə
tüğyan edən,
həsrətlərlə çiyin-çiyinə
yol gedən,
ayrılıqlara sinə gərən,
arzularla qanad açan
sözlər
yerindəmi.
Nöqtəsi, vergülü, nidası
düzmü qoyulub.
Suallara cavab verirmi
sözlər.

İllərdir ürəyimdə

pozulmayıb həriflər.

Kiminsə xoşuna gəlməyən

sözlərin

üstünə xətt çəkilməyib,

Qara düşməyib

ürəyimə,

redaktə et ürəyimi.

***

Nə çətinmiş ölmək ilahi

Yat dedilər, yatdım

Dur dedilər, durdum

Gəl dedilər , gəldim

Get dedilər, getdim

Nə dedilər… etdim.

Öl dedilər,

ölənmədim.

Nə çətinmiş,

bu dünyada

ölmək, ilahi!

Heç sifariş xoşlamır.

Sonra da adını,

yarıtmaz qoydular.

## GEDİRƏM

Açılacaq bu gecədə,

Üzü səhərə gedirəm.

Hər gün yolumu gözləyən

Qəmə-qəhərə gedirəm.

Abır-həyadan yırtılan,

Çöldə, bayırda sırtılan,

Hər gün üzümə çırpılan

Çora, zəhərə gedirəm.

Bu dünya bir təhər olub,

Gecə bitib, səhər olub,

Daha dayçam kəhər olub,

Minib kəhərə gedirəm.

Köklənmişəm cəngi üstə,
Gahdan zildə, gahdan pəstə,
Xoş arzuda, xoş həvəsdə
Durub şəhərə gedirəm.

18.09.2010

## YAŞIM OXŞAYIR SƏNƏ

Yaşım oxşayır sənə,..
bənzəyir bir az.
Sənin kimi…
sifətinə qırış düşüb,
saçı ağarıb,

gözləri zəif görür.

Saxlaya  bilmədim yaşımı

sənin kimi…

ötüb keçir adamı,

adama oxşarlığı yox.

Amma asta-asta qənim kəsilir,

adam ömrünə

sənin kimi…

Yaxşı ki, bu dünyada,

oxşarın tapıldı.

Lap qohumuyam deyərsən

yaşımın.

Siz Allah,

yastıq bilib daş qoymayın

başımın altına…

Saxlayın o daşı

dar gündə gərəyim olar.

Etibar yoxdu

nə sənə, nə də ki, yaşıma.

Vurmuşam dişimə,

sınamışam sizi  xəyanət kimi,

ömrümü yazacam o daşa…

GİZLƏNMİŞƏM

Heç yerimi bilən yox

Mən qəmdə gizlənmişəm.

Hamı baxır üzünə,

Sinəndə gizlənmişəm.

Qəlbim köksündə ada,

Fikrim batıb dəryada.

Alışdım-yandım oda,

Sönəndə gizlənmişəm.

Qovruldum istisindən,

Kor oldum tüstüsündən.

Xəyalların köksündən,

Enəndə gizlənmişəm.

Baxammadım üzünə,

Kədər çökdü gözümə,

Qayıdırdım özümə,

Dönəndə gizlənmişəm.

Köksündə qırma məni,
Sabahdan sorma məni,
Bu gün axtarma məni
Dünəndə gizlənmişəm.

## İÇİMİ YEYİB GƏLMİŞƏM

*Sevimli şairimiz Musa Ələkbərliyə*

Susuzluğum, aclığım yox
İçimi yeyib gəlmişəm.
Əl-ayağım dil açandan
Başıma döyüb gəlmişəm.

Bu dünyaya nə gətirdim,
Bu dünyadan nə götürdüm.
Nə qazandım, nə itirdim
Yerində qoyub gəlmişəm.

Suda batmaz odum, közüm.

Deyilib deyiləsi sözüm.

Dünyada mənim nə gözüm?

Dünyaya doyub gəlmişəm.

## SƏN BİZƏ QONAQ GƏLİBSƏN

Yuxudan ayılıb gördüm,

Sən bizə qonaq gəlibsən.

Üzün-gözün tər içində

Elə bil uzaq gəlibsən.

Heç baxmadım üzünə də

Elə bil yad adam gəlib.

Yatanda qapı bağlıydı

Bəs bu adam

Hardan gəlib?

Bu qışın qarlı günündə

Pəncərələr bağlı olur.

Gözlərində qış yuxusu,

Canında bir ağrı olur.

Bəs bu adam hardan girib

Evə hardan yol tapıb o

Bəlkə qapını çöldə yox

İçəridən açıbdı o

Şübhələr didir içimi...

Bir də gördüm ağlayır o

Tərə qarışıb..

Göz yaşı

Silməyə də yaylığı yox.

əlimi çəkdim alnına,

alnı qar tək soyuq idi.

Gözüm dikildi üzünə

Heç onun gözü yox idi.

Dindirdim danışmadı o

Bəlkə ağzı,dili yoxdu.

əl uzatdım əllərinə

gördüm nə də əli yoxdu.

Çox görmüşdü ölü adam

Hələ belə ölü yoxdu.

Göz yaşını hardan alır?

Göz yerində gözü yoxdu.

Necə girib bu evə o,

Axı onun üzü yoxdu.

Nə ağzı var,nə də dili

Nə də onun sözü yoxdu.

Bu gəliş bir söz olacaq

Söhbət,söz olmayan yerdə.

Bağrım yanıb köz olacaq

Ocaq,köz olmayan yerdə.

Bir mən,bir də köhnə şəkil...

Sükut çökür aramıza

Xatirələr,nə də şəkil

Məlhəm olmur yaramıza.

YERİN BOŞ QALIB

Sənsizliyin yerini

Nə qədər ,

doldursam da….

Yenə,

Ürəyimdə

Sənin

yerin boş qalıb.

BÖYÜDÜR

İndiyədək sən böyütdün,

İnnən belə dərd böyüdür.

Sən bir oğul böyütmüsən.

O bir igid, mərd böyüdür.

Ağır gün-güzara dözüb,

Azara-bezara dözüb.

Sərt şaxtaya, qara dözüb,

Daha möhkəm, sərt böyüdür.

Gündə yandı üzüm, anam,

Eynək taxır gözüm, anam,

Dərd içində sözüm, anam,

Qəlbimdə möhnət böyüdür.

## OYATMAĞA ƏLİM GƏLMƏDİ

Xəyallarım,

Məndən uzaq düşdün.

Sənsiz darıxdım,

Aradım, axtardım

Bir qız qucağında

Xumarlanıb yatan

gördüm.

Qıymadım oyatmağa -

Əlim gəlmədi.

Əfv etdim

Səni.

***

Yuduq,

keçmişimizi…

Gələcəkdə

Təmiz

görünmək üçün.

Ləkəli yerlərin

sapı

süzüldü.

***

Sənə bağladığım

Ümidlərin

yerini

boş qoymuşam.

Nə vaxt istəsən

Yaza bilərsən,

Özünü

Öz əllərinlə…

***

Dərdlər də

fərqli olur,

insanlar kimi.

Hamı,

gücü çatdığı qədər çəkir,

dərdləri.

İstədiyi məkana.

Bilirəm, sevgilim,

Sənin dərdin

Mənəm.

Mənim dərdim

Dərdsizliyim.

Gecəmi gündüzümə qatıb

dərd axtarışındayam,

yol gedirəm hələ

dərdlərimə.

Sən isə

yol qırağındakı

işıq lampaları tək,

Yolumu işıqlandırırsan.

VAXTIM QALMAYIB

Vaxtı böldüm

Saata,

Dəqiqəyə,

Ana,

Bir də ki sənə.

Vaxtı böldüm

Kitablara,

Yazıya-pozuya,

Bir də ki sənə.

Vaxtı böldüm

Evə,

İşə,

Bazara,

Bir də ki sənə.

Vaxtı böldüm

Toya,

Yasa,

Arada bir

yatmağa,

Bir də ki sənə.

Bir vaxt gördüm ki,

Özümə

Vaxtım qalmayıb,

Vaxtım qurtarıb.

TƏLƏSİRİK

Özümü
gecənin qaranlığına
sürtə-sürtə,
üzümdə
abır-həyanın
boyası,
qəlbimdə
vulkan təlatümü.
Vuruşa-vuruşa
fikrin qaranlığından,
gecənin qaranlığını
zəbt edirəm.
Bu gecənin
başqa
sərnişini yox,
bir qaranlıq,
bir də mən.
O, səhərə tələsir,
Mən,
bir qız dodaqlarına
qonaq olmağa.

OLMUŞAM

Mən də dilsiz bir insandım,
Qanadlanıb quş olmuşam.
Uçurdum səssiz-səmirsiz,
Bir ovçuya tuş olmuşam.

Ox atdı, qanım töküldü,
Ömrün binası söküldü.
Bədəndən ruhum çəkildi,
Yüz min illik daş olmuşam.

Əsrimin göz yaşı məndə,
Tarixin yaddaşı məndə.
Bu dünyanın yaşı məndə,
Hamıya sirdaş olmuşam.

AXTARSAN MƏNİ

Gecələr

qaranlığın bağrını

didərsən dişlərinlə.

Səhərlər gündüzün

arxasınca düşüb

qovarsan

qan tərə bata-bata.

Tökərsən üstünə hirsini,

qaldığım evə

bir də

iş yerinə.

Tapmazsan məni.

Sonra dayanacaqda

avtobus əvəzinə

gözlərsən gecəni.

Özündən başqa

hamıdan

soruşarsan məni.

Bircə sənə

dəli deməsinlər.

Axı mən çoxdan

ölmüşəm.

ÇIXDIM

Alovlandım, alovlandım,

Tüstü olub göyə çıxdım.

Yerdə qoydum adamları,

Allahı görməyə çıxdım.

Keçdim buludun içindən,

Odun, alovun içindən.

Qohumun, yadın içindən

Hamıya köməyə çıxdım.

Külək əsib əyilməmiş,

Baş- gözünə döyulməmiş.

Bir kimsəyə deyilməmiş

Sözümü deməyə çıxdım.

SƏN KÖZƏRİB, SÖNÜB GETDİN

Qəfildən düşdün yadıma,

Gözlərimdə dolub getdin.

Dözəmmədim həsrətinə

Yanaqda sel olub getdin.

Sən söhbətə-sözə döndün,
Görünməz ulduza döndün,
Arzularda buza döndün,
Xəyallarda donub getdin.

Bu ömrün qıraq-qaşında,
Bağrı çatlar tək daşında
Öz əlimlə, öz başımda,
Saçlarımı yolub getdin.

Sənsizəm yenə səninlə,
Qəbrini qazdım əlimlə,
Döyüşürdün sən ölümlə,
Niyə birdən ölüb getdin

Qoydun tanrı umuduna,
Bir şam yandırdım adına,
Alışmadın eşq oduna,
Sən közərib,sönüb getdin.

ÜRƏYİNDƏ

Çöl yaman soyuqdur, gülüm
Yatır məni ürəyində.
Sən ümman ol,mən bir qayıq
Batır məni ürəyində.

Dərdə yara düşən kimi,
Qəlbə qara düşən kimi,
Bir az dara düşən kimi,
Götür məni ürəyində.

Ömrə, günü bəxti tən kəs.
Bir az uzun, bir az gen kəs.
Məni səndə axtaran kəs
Tapır məni ürəyində.

Ağıllı bil, ya divanə
Yolum qəlbində yubana.
Son mənzillə son ünvana
Çatdır məni ürəyinə.

MƏN QUZU QALA BİLMƏDİM

Hamı məni əzizlərdi,

Quzum deyib qucaqlardı.

Sığallayıb yun dərimi,

... İsti yerlərdə saxlardı.

Otlayardım bir çəməndə ,

Dörd bir yanı gül-çiçəkdi.

Dərdim vardı,nə də qəmim

Fikrim təkcə böyüməkdi.

Bir tərəfimdə bağ-baxça,

Otlayardım nə istəsəm.

Billur kimi su axardı,

Lap gözümün kölgəsindən.

Yatmaq idi, bir otlamaq,

Başqa dərdim yoxdu mənim.

Bir gün çobandan xəbərsiz

Bir qurd çıxdı mənə qənım.

Qorxudan çıxmadı səsim,

Bir anda kəsdi nəfəsim.

Dərimi çıxardı boynumdan,

Nə xəbərim qurd oynundan.

Böyüyüb qoyun olmadım,

Quzu oldum bu dunyada.

Qurd öz qarnını doydurdu,

Qoymadı çatım bu ada.

Mən qoyun ola bilmədım,

Quzu oldum bu dünyada.

Yaxşı ki, qurdlar var imiş

Qoymayır qoyun olmağa.

Bu çobanın gunahından,

Bu qurdların iştahından,

Mən quzu qala bilmədim,

Mən qoyun ola bilmədim.

## XƏYANƏT BOYDA

Xəyanət boyda-

əl verirəm sənə

qaytarıb çırpsan da

üzümə.

Xəyanət boyda-

göz verirəm sənə,

baxa bilsən gözümə.

Xəyanət boyda

söz verirəm sənə,

qata bilsən sözünə.

Xəyanət boyda

ürək verirəm sənə

yer tapa bilərsənmi özünə?

Daha buradan o yana

heç kəs yoxdu-

getmə heç yerə.

Xəyanəti

sapla qəlbinə,

tikiş qoyarsan

ömrünə

xəyanət boyda.

ƏLLƏRİM QONAQDI ÜRƏYİMƏ

Əllərimi  qucaqlayıb,

yatıram hər gün.

Əllərimdən heç nə

düşməsin deyə.

Qollarımın arasında,

sıxılırdı əllərim.

Bir saçının ətri qalıb,

bir ümid qalıb,

Səndən

əllərimdə

başqa heç nə.

Əllərimi yanıma sala bilmirəm,

əl çəkmir ürəyimdən əllərim

ürəyim üşüməsin deyə.

Səndən pay gətirib

əllərim ürəyimə

saçlarının ətrini.

Qonaq gəlib

əllərim ürəyimə

saçlarının ətriylə,

bir də ümidlə

ürəyim tənha qalmasın deyə.

Ona görə də əllərim,

qollarımın arasında

sıxılır

ürəyimlə.

16.01.2013

Dizinə kimi mazuta batan,

ağzına toz-torpaq dolan,

geniş saraylardan xoşbəxt görünən,

* * *

Dizinə kimi mazuta batan,

ağzına toz-torpaq dolan,

geniş saraylardan xoşbəxt görünən,

özü-öz içində boğulan,

ölənlə ölən - Bakım.

Hər yeni doğulanla,

yeni doğulan Bakım.

Dünya sənə güvənir,

sən mazutlu dizlərinə.

Səni xoşbəxt görmək istiyəni,

sən bədbəxt elədin.

Afərin!

Allah sənə şəfa versin -

yoxsulun kor olmuş

gözləri kimi

işıq gəlsin gözlərinə.

## BAĞLA ÜRƏYİMİ DAŞA

Bağlaya bilmədin özünə

Ürəyimə daş bağlama.

Ürəyimi daşa bağla -

qaçmasın

gedəsi yeri olmasın.

İstəyirsən

Borana-qışa bağla

ürəyimə yağsın qar.

Yaz gələndə çiçək açmasın.

Günəş şəfəqləri

ürəyimi islatmasın,

kölgəsi

ayağım altında sürünməsin.

İsinməsin ürəyim

günəşin istisindən.

Kor olmasın

Gözlərim tüstüsündən.

Bir qız ürəyinə

İşıq salmasın,

Ümidin kölgəsində

yıxılıb qalmasın.

Ürəyimə daş bağlama -

bağla, ürəyimi daşa bağla.

Qoy daşürəkli desinlər.

Gərəyin olsa

özün açarsan -

açarını itirmə.

## BOĞULUR

Əlimdə

ümid də qalmayıb...

Səpdim..

yiyəsiz,

eyvandan- eyvana uçan,

boynu bükük sərçələrə.

Yoxsa,

ümid əkərdim gözlərinə,

sulayardın gözlərində.

Mənlik deyil-

göyərsə də,göyərməsə də.

Bəlkə də, çürümüşdü,

çoxdan qalmışdı

çibimin küncündə.

Ümidsizlik  əlimdə,

əllərim çibibimdə

boğulur

daha...

PAYIZDA ÖLƏRDİ PAYIZ

Bu payızı da dərdik,

meyvələr kimi.

Bu payız da saraldı,

yarpaqlar kimi,

töküldü yerə.

Bu  payız da bozardı,

bomboz  səhralar kimi.

Bu  payızın da üstünə

şaxtalar düşdü.

Bu payızın da oxşarlığı çoxdu

İnsanlığa.

Heyif bircə gözləri yox,

görmədi başına gələn

bu müsibətləri.

Yoxsa ,ürəyi partlayıb

ölərdi bu payız.

Payızda ölərdi payız.

Qış olmazdı heç zaman.